Gəncə Dövlət Universiteti

# MAGISTRATURA TƏHSİL SƏVİYYƏSİNİN 7002016 – AZƏRBAYCANIN YENI VƏ ƏN YENI TARIXI İXTİSASI PROQRAMININ

# TƏLİM NƏTİCƏLƏRİ

GƏNCƏ-2025

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**PUBLİK HÜQUQİ ŞƏXSİ**

# MAGISTRATURA TƏHSİL SƏVİYYƏSİNİN 7002016 – AZƏRBAYCANIN YENI VƏ ƏN YENI TARIXI İXTİSASI PROQRAMININ

# TƏLİM NƏTİCƏLƏRİ

*Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının 12.06.2025-ci il tarixli (pr.№013) iclasında müzakirə edilərək bəyənilmiş və qəbul edilmişdir.*

**GƏNCƏ - 2025**

***Tərtib edənlər:***

**Əliyeva Gulara Əlvan qızı**
**Gəncə Dövlət Universitetinin**
**Azərbaycan tarixi kafedrasının**
**müdiri Tarix üzrə fəlsəfə doktoru,**
**Dosent**

**Bağırova Sevinc Ramiz qızı**
**Tarix üzrə fəlsəfə doktoru,**
**Dosent**

**Hüseynova Rimunə Zakir qızı**
**Tarix üzrə fəlsəfə doktoru,**
**Baş müəllim**

**Mehdiyev Eldar Musa oğlu**
**Gəncə Dövlət Universitetinin**
**Azərbaycan tarixi kafedrasının ,**
**baş müəllim**

# GİRİŞ

Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır. Buna görə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq hər Proqramın Təlim Nəticələri (PTN) və Proqrama daxil olan Fənnlərin Təlim Nəticələri (FTN) magistrə yönəlmiş ali təhsil sisteminin başlıca konseptual əsasını formalaşdırır.

Gözlənilən təlim nəticələri hər proqram və fənn üzrə tədris başlamazdan əvvəl yazılmalı və tədris prosesi zamanı professor-müəllim heyəti və tələbə arasında dialoq vasitəsilə inkişaf etdirilməlidir.

Proqram və fənlərin təsvirində təlim nəticələrindən istifadə proqramın, yaxud modulun sonunda magistrlərdən nə tələb olunduğunu onlara çatdırır və nailiyyətlərini necə nümayiş etdirmək lazım olduğunu aydın surətdə göstərir.

Metodik tövsiyədə **7002016** - Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üçün təhsil proqramı üzrə təlim nəticələri, fənlər üzrə təlim nəticələri, eləcə də tədris olunan fənlərin və təhsil proqramının təlim nəticələrinin matrisi verilmişdir.

Təlim nəticələrinin kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən maraqlı tərəflərə daha aydın və anlaşıqlı olması üçün mütəmadi olaraq ayrı-ayrı fənlərin təlim nəticələri kafedrada yaradılmış komissiya tərəfindən ekspertiza edilir.

**Əlavə 1**

# “7002016-TARİX” İXTİSASININ AZƏRBAYCANIN YENİ VƏ ƏN YENİ TARIXİ İXTİSASLAŞMASI ÜZRƏ TƏHSİL PROQRAMININ TƏLİM NƏTİCƏLƏRİ

## PROQRAMININ TƏLİM NƏTİCƏLƏRİ (PTN)

**PTN 1.** Azərbaycanın yeni və ən yeni dövrünə dair elmi-nəzəri və metodoloji yanaşmaları, proqram modellərini və beynəlxalq təcrübəni inkişaf etdirərək, onları Azərbaycan tarixinin XIX–XXI əsrlər kontekstində tətbiq imkanlarını elmi-metodik əsaslarla təhlil edir;

**PTN 2.** Yeni və ən yeni dövrün öyrənilməsində tarixi materiallardan (arxiv sənədləri, dövrü mətbuat nümunələri, statistik məlumatlar, xəritələr, vizual materiallar, elektron resurslar) istifadəyə əsaslanan yanaşmalar əsasında elmi-metodik baxımdan araşdırma aparır və nəticələrini əsaslandırır;

**PTN 3.** Azərbaycanın yeni və ən yeni tarixinə dair proqramları və elmi-metodik materialları (dərsliklər, tədris vəsaitləri, metodik göstərişlər) elmi-kritik meyarlarla qiymətləndirir və onların effektivliyini müəyyənləşdirir;

**PTN 4.** Yeni və ən yeni dövr tarixinin tədrisində istifadə olunan didaktik vasitələrin və müasir təlim texnologiyalarının praktik təsirini elmi-pedaqoji tədqiqat meyarları ilə qiymətləndirir və onların təkmilləşdirilməsi üzrə təkliflər irəli sürür;

**PTN 5.** Azərbaycanın XIX–XXI əsr tarixinə dair aparılmış empirik və nəzəri tədqiqatları metodoloji baxımdan təhlil və sintez edir, həmin tədqiqatların nəticələrinə əsaslanan elmi-nəzəri ümumiləşdirmələr aparır;

**PTN 6.** Azərbaycanın yeni və ən yeni tarixinin keyfiyyətli öyrənilməsi və tədrisi məqsədilə aktual tədqiqat problemlərini həll edir, elmi-pedaqoji araşdırmalar aparır və məqsədəuyğun praktiki nəticələr əldə edir;

**PTN 7.** Yeni və ən yeni dövr Azərbaycan tarixinə dair elmi məqalələri, metodik tədqiqatları və tədqiqat hesabatlarını nüfuzlu

elmi platformalarda təqdim edir və milli həm də beynəlxalq elmi diskursda iştirak edir;

**PTN 8.** XIX–XXI əsrlərə aid yazılı mətnlərdən, vizual materiallardan, kartoqrafik və arxiv sənədlərindən, statistik və publisistik mənbələrdən tədris prosesində interpretasiya və təhlil üsulları ilə istifadə edərək səmərəli elmi-metodik təlim mühiti yaradır;

**PTN 9.** Azərbaycanın yeni və ən yeni dövründə baş vermiş tarixi hadisə və proseslər, siyasi hərəkatlar, məkan və səbəb-nəticə əlaqəli obyektlər, ilkin tarixi mənbələr (xronikalar, sənədlər, mətbuat nümunələri, epiqrafik materiallar, xəritələr, vizual materiallar və şifahi tarix nümunələri) əsasında elmi-metodik təlim materialları hazırlayır və onların idrak ölçmə metodikasını formalaşdırır;

**PTN 10.** Yeni və ən yeni dövr Azərbaycan tarixi üzrə orijinal yazılı materialları, arxiv sənədlərini, dövr mətbuatını, vizual təsvirləri (fotoşəkillər, karikaturalar, film fraqmentləri), tarixi xəritələri və statistik cədvəlləri təhlil edir, interpretasiya bacarıqlarını inkişaf etdirmək məqsədilə elmi-metodik materiallara çevirir;

**PTN** 11. Azərbaycanın yeni və ən yeni tarixinə dair ilkin mənbələrdən (arxiv sənədləri, mətbuat nümunələri, epiqrafik materiallar, xəritələr, vizual və şifahi tarix nümunələri) elmi-metodik təlim materialları hazırlayır, onların didaktik potensialını təhlil edir və müxtəlif formatlı tarixi materiallara tənqidi yanaşma əsasında onları tədris prosesinə tətbiq edir.

# FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ (FTN)

## ÜMUMİ FƏNLƏR

### Tədqiqat metodları

**FTN 1.** Müxtəlif tədqiqat metodlarını (kəmiyyət və keyfiyyət) tədqiqat sualına uyğunluğu baxımından qiymətləndirir və onların güclü və zəif tərəflərini əsaslandırmağı bacarır;

**FTN 2.** Akademik ədəbiyyat və empirik nəticələri təhlil edərək metodoloji yanaşmalar arasında müqayisəli qiymətləndirir;

**FTN 3.** Etik prinsipləri nəzərə alaraq seçilmiş metodologiyanın uyğunluğunu və tətbiq imkanlarını tənqidi şəkildə təhlil edir.

**FTN 4.** Fərqli tədqiqat dizaynlarının praktiki nəticələrə təsirini əsaslandıraraq düzgün metodoloji qərar verir.

**FTN 5.** Konkret tədqiqat sualına əsaslanaraq orijinal bir tədqiqat dizaynı yaradır və uyğun metodları inteqrasiya edir

**FTN 6.** Empirik tədqiqat üçün yeni ölçmə alətləri (anket, müşahidə forması, kodlaşdırma sxemi və s.) hazırlayır və əsaslandırır

**FTN 7.** Fərqli metodoloji yanaşmaları birləşdirərək innovativ qarışıq tədqiqat (mixed methods) modeli qurur və onu tətbiq etməyi bacarır.

**FTN 8.** Əldə olunan məlumatlar əsasında yeni nəzəri çərçivə və ya model irəli sürür və onun elmi əsaslarını təqdim edir.

## Akademik yazı və etika

**FTN 1.** Akademik mənbələrin etibarlılığını, elmi üslubunu və istinad standartlarına uyğunluğunu qiymətləndirir və onların elmi yazıda istifadəsinin məqsədəuyğunluğunu əsaslandırır;

**FTN 2.** Müxtəlif akademik yazı nümunələrində plagiat, səhv istinad və etik pozuntuları müəyyən edir və onların nəticələrini tənqidi şəkildə təhlil edir

**FTN 3.** Müxtəlif sahələrdə tətbiq olunan akademik etika prinsiplərini müqayisə edir və konkret tədqiqat və yazı kontekstində bu prinsiplərin tətbiqini əsaslandırır.

**FTN 4.** Özünün və başqalarının yazı işlərini elmi, etik və stilistik baxımdan qiymətləndirir və inkişaf etdirilməsi üçün əsaslandırılmış rəy verir

**FTN 5.** Müxtəlif akademik auditoriyalar üçün uyğunlaşdırılmış yazı strategiyaları və strukturlaşdırma üsulları yaradır və onların məqsədəuyğunluğunu izah edir.

**FTN 6.** Konkret tədqiqat mövzusuna dair elmi əsaslandırılmış, etik baxımdan düzgün və metodoloji cəhətdən tutarlı bir yazılı məhsul (məqalə, araşdırma sənədi və s.) yaradır.

.

## Tədqiqat analitikası (FTN)

**FTN 1.** Müxtəlif məlumat analiz metodlarını konkret tədqiqat kontekstində tətbiq edilmə imkanları baxımından qiymətləndirir və metodların güclü və zəif cəhətlərini əsaslandırır.

**FTN 2.** Məlumatların təhlilindən əldə olunan nəticələri mövcud nəzəri çərçivə ilə müqayisə edir və nəticələrin etibarlılığını və məntiqini qiymətləndirir.

**FTN 3.** Fərqli analitik yanaşmaların (məsələn, statistik modellər, maşın öyrənməsi, vizualizasiya vasitələri) tədqiqat məqsədlərinə uyğunluğunu əsaslandırır və uyğun texnologiya seçir.

**FTN 4.** Tədqiqat analitikası sahəsində etik, hüquqi və sosial nəticələri təhlil edərək məlumatların istifadəsinin məsuliyyətli olub-olmadığını qiymətləndirir.

**FTN 5.** Mövcud analitik metodlara əsaslanaraq yeni tədqiqat analizi yanaşması və ya inteqrasiya olunmuş modeli (məsələn, qarışıq metodologiya və vizual analitika) inkişaf etdirir.

**FTN 6.** Fərqli mənbələrdən toplanan məlumatları birləşdirərək yeni tədqiqat sualına cavab verən məlumat analizi çərçivəsi və ya platforması qurur.

**FTN 7.** Tədqiqat layihəsi üçün orijinal məlumat vizualizasiya alətləri və ya panelləri (dashboard) hazırlayır və onları elmi əsaslandırır.

**FTN 8.** Analitik nəticələr əsasında yeni strategiyalar və qərarvermə mexanizmləri formalaşdırır və bu yanaşmanın tətbiq imkanlarını əsaslandırır.

## ALİ TƏHSİL MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN MƏCBURİ FƏNLƏR

### Azərbaycanın yeni və ən yeni tarixi elminin müasir problemləri

FTN 1. Azərbaycanın yeni və ən yeni tarixinin əsas mərhələləri, əsas mənbələri və öyrənilmə problemləri haqqında biliklərə yiyələnir;

FTN 2. Yeni və ən yeni tarixlə bağlı mövcud elmi konsepsiyaları, müxtəlif tarixşünaslıq yanaşmalarını və mübahisəli məsələləri şərh edə bilir.

FTN 3. Əldə etdiyi bilikləri istifadə edərək konkret tarixi hadisələrin təhlilində metodoloji yanaşmaları tətbiq edə bilir.

FTN 4. Yeni və ən yeni tarixdə mübahisəli məsələləri, fərqli elmi baxışları müqayisə edir, onların üstün və zəif tərəflərini ayırd edə bilir.

FTN 5. Azərbaycan tarixinin yeni və ən yeni dövrlərinə dair mövcud problemləri ümumiləşdirir, alternativ elmi yanaşmalar irəli sürə bilir.

FTN 6. Yeni və ən yeni tarix elminin müasir problemlərinə dair mövcud nəzəriyyələri və tədqiqatları elmi arqumentlərlə qiymətləndirir və öz mövqeyini əsaslandıra bilir

## Azərbaycanın yeni və ən yeni tarixinin tədrisi metodologiyası və metodikası

**FTN 1.** Azərbaycanın yeni və ən yeni tarixinin tədrisində istifadə olunan əsas metodoloji prinsipləri və pedaqoji yanaşmaları izah edə bilir;
**FTN 2.** Müxtəlif tədris metodlarının xüsusiyyətlərini, onların tarix fənninin tədrisində tətbiq imkanlarını şərh edir;
**FTN 3.** Dərs planı, mühazirə məzmunu və praktiki məşğələlərdə yeni və ən yeni tarixə dair metodoloji yanaşmaları tətbiq edə bilir;
**FTN 4.** Tədris prosesində istifadə olunan metod və üsulların effektivliyini təhlil edir, onların müsbət və mənfi tərəflərini müəyyənləşdirir;
**FTN 5.** Yeni pedaqoji texnologiyalar və metodlardan istifadə etməklə Azərbaycanın yeni və ən yeni tarixinin tədrisi üçün innovativ yanaşmalar hazırlaya bilir;
**FTN 6.** Tədris metodologiyası və metodikasının Azərbaycan tarixi üzrə biliklərin formalaşmasına təsirini elmi arqumentlərlə qiymətləndirir və tədris prosesinin keyfiyyətinə dair nəticə çıxara bilir;

# ALİ TƏHSİL MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN SEÇMƏ FƏNLƏR

## 1.2. Qarabağ münaqişəsi və həllinin beynəlxalq aspektləri

FTN 1. Qarabağ münaqişəsinin tarixi köklərini, səbəblərini və inkişaf mərhələlərini izah edə bilir.

FTN 2. Münaqişənin beynəlxalq hüquq normaları (BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və s.) əsasında təhlilini aparır və ATƏT-in Minsk qrupu, BMT, Avropa İttifaqı və digər beynəlxalq qurumların fəaliyyətini analiz edə bilir

FTN 3. Qarabağ münaqişəsinin regional və qlobal güclərin maraqları prizmasında təsirini müəyyənləşdirir.

FTN 4. Münaqişənin həlli yolları üzrə beynəlxalq təcrübəni müqayisə edərək alternativ yanaşmalar təklif edə bilir.

FTN 5. Münaqişənin həlli prosesində Azərbaycanın diplomatik strategiyasını və əldə etdiyi uğurları təhlil edir.

FTN 6. Qarabağ məsələsinin regional təhlükəsizlik və əməkdaşlıq sisteminə təsirlərini müəyyənləşdirə bilir.

FTN 7. Beynəlxalq informasiya mübarizəsində Azərbaycanın mövqeyini əsaslandırır və təqdim edə bilir.

## XX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişafı

FTN 1. XX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişaf mərhələləri, əsas islahatlar və iqtisadi göstəricilər haqqında biliklərə yiyələnir;

FTN 2. Həmin dövrdə baş verən sosial-iqtisadi dəyişikliklərin səbəblərini və nəticələrini şərh edir;

FTN 3. Əldə etdiyi biliklər əsasında konkret illər üzrə iqtisadi proseslərin təhlilini aparır və onları ümumi inkişaf meylləri ilə əlaqələndirir;

FTN 4. Sosial-iqtisadi inkişafın əsas sahələrini (sənaye, kənd təsərrüfatı, sosial həyat) müqayisəli şəkildə təhlil edir və regional fərqləri müəyyənləşdirir;

FTN 5. XX əsrin ikinci yarısında sosial-iqtisadi inkişafın nəticələrini ümumiləşdirərək onların Azərbaycan dövlətçiliyinin gələcək mərhələlərinə təsirini izah edə bilir;

FTN 6. Sosial-iqtisadi inkişafın müsbət və mənfi tərəflərini elmi arqumentlərlə qiymətləndirir və bu proseslərin Azərbaycan tarixindəki yerini müəyyənləşdirir;

## Azərbaycan xalqının tarixində Azərbaycan Xalq Cümhuriyyətinin rolu

FTN 1. Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) yaranma səbəblərini, fəaliyyət istiqamətlərini və süqutunun əsas səbəblərini sadalaya bilir.
FTN 2. Cümhuriyyətin demokratik dövlət quruculuğu, hüquqi əsaslar və milli dövlətçilik ənənələrinin formalaşmasında rolunu izah edə bilir.

FTN 3. Cümhuriyyətin qəbul etdiyi qanunvericilik aktlarını, təhsil, ordu və diplomatiya sahəsindəki islahatlarını müasir dövlətçilik təcrübəsi ilə əlaqələndirə bilir.
FTN 4. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınma uğurlarını və qarşılaşdığı çətinlikləri təhlil edə bilir.

FTN 5. Azərbaycan Xalq Cümhuriyyəti irsini müasir müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu ilə əlaqələndirərək yeni konseptual yanaşmalar formalaşdıra bilir

FTN 6. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının azadlıq mübarizəsində və dövlətçilik ənənələrinin inkişafında oynadığı rolu tənqidi qiymətləndirə bilir.

## Azərbaycan tarixinin tarixşünaslığının və mənbəşünaslığının əsas xüsusiyyətləri

FTN 1. Magistr Azərbaycan tarixinin tarixşünaslıq və mənbəşünaslıq sahəsində əsas mərhələləri, metodları və əhəmiyyətli tədqiqatçıları haqqında biliklərə yiyələnir.
FTN 2. Magistr müxtəlif tarixşünaslıq məktəblərinin və mənbəşünaslıq yanaşmalarının əsas xüsusiyyətlərini izah edir və müqayisə edir.
FTN 3. Magistr əldə etdiyi bilikləri istifadə edərək konkret tarixi hadisələr və dövrlər üzrə mənbələri təhlil edir və tarixşünaslıq yanaşmalarını tətbiq edir.
FTN 4. Magistr mənbələrdəki məlumatların etibarlılığını, onların tarixi dəyərini və müxtəlif tarixşünaslıq interpretasiyalarını müqayisəli şəkildə təhlil edir
FTN 5. Magistr müxtəlif mənbə və tarixşünaslıq yanaşmalarını birləşdirərək Azərbaycan tarixinin tədqiqi üçün yeni metodoloji yanaşmalar hazırlaya bilir.
FTN 6. Magistr tarixşünaslıq və mənbəşünaslıq sahəsində mövcud yanaşmaları elmi arqumentlərlə qiymətləndirir və öz müstəqil mövqeyini formalaşdırır.
.

## Azərbaycan arxeologiyası və etnoqrafiyası

FTN 1. Magistr Azərbaycan arxeologiyası və etnoqrafiyasının əsas mərhələləri, tədqiqat obyektləri və əhəmiyyətli tədqiqatçıları haqqında biliklərə yiyələnir.
FTN 2. Magistr müxtəlif dövrlərə aid arxeoloji tapıntıların və etnoqrafik materialların mənasını və tarixi əhəmiyyətini izah edə bilir.
FTN 3. Magistr arxeoloji və etnoqrafik məlumatlardan istifadə edərək tarixi hadisələrin və mədəniyyətlərin tədqiqində metodoloji yanaşmaları tətbiq edə bilir.
FTN 4. Magistr arxeoloji və etnoqrafik materialları təhlil edir, onların mənbə etibarlılığını qiymətləndirir və fərqli dövrlərin mədəni xüsusiyyətlərini müqayisə edir
FTN 5. Magistr müxtəlif arxeoloji və etnoqrafik məlumatları birləşdirərək Azərbaycan tarixinin və mədəniyyətinin inkişafı ilə bağlı ümumi nəticələr çıxara bilir..
FTN 6. Magistr Azərbaycan arxeologiyası və etnoqrafiyasının tədqiqat metodlarını elmi arqumentlərlə qiymətləndirir və onların tarixi biliklərin formalaşmasında rolunu müəyyənləşdirir.

## XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin başlıca problemləri

FTN 1. Magistr XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi inkişaf mərhələləri, başlıca problemləri və tarixi hadisələr haqqında biliklərə yiyələnir.

FTN 2. Magistr həmin dövrdə baş verən sosial-iqtisadi və siyasi proseslərin səbəb və nəticələrini, həmçinin onların Azərbaycan tarixindəki rolunu izah edə bilir.

FTN 3. Magistr əldə etdiyi bilikləri konkret tarixi hadisələrin və dövrlərin təhlilində tətbiq edə bilir.

FTN 4. Magistr sosial-iqtisadi və siyasi problemləri müxtəlif mənbələr üzrə müqayisəli şəkildə təhlil edir, onların səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.

FTN 5. Magistr müxtəlif məlumat və mənbələri birləşdirərək XIX-XX əsrlər Azərbaycanının inkişaf meyllərini ümumiləşdirir və başlıca problemlərin tarixi kontekstini müəyyənləşdirir.

FTN 6. Magistr həmin dövrün sosial-iqtisadi və siyasi problemlərini elmi arqumentlərlə qiymətləndirir və onların Azərbaycan tarixindəki əhəmiyyətini müəyyənləşdirir.

## I blok: 1.1. Neft faktorunun Azərbaycanın beynəlxalq əhəmiyyətində rolu

FTN 1. Azərbaycanın neft amilinin formalaşdırdığı beynəlxalq siyasi və iqtisadi əlaqələri təhlil edə bilir.

FTN 2. Azərbaycan neftinin tarixi, müasir və gələcək perspektivləri barədə nəzəri əsasları mənimsəyir.

FTN 3. Neft amilinin ölkənin milli iqtisadi inkişafında və beynəlxalq əmək bölgüsündə rolunu dəyərləndirə bilir.

FTN 4. Neft faktorunun Azərbaycanın regional və qlobal geosiyasətdəki mövqeyini müəyyənləşdirə bilir.

FTN 5. Azərbaycanın enerji resurslarının beynəlxalq enerji təhlükəsizliyinə təsirini, neft diplomatiyası və beynəlxalq əməkdaşlıq strategiyalarını təhlil edir.

FTN 6. Azərbaycan neftinin dünya enerji bazarındakı digər regionlarla müqayisəli üstünlüklərini və zəif cəhətlərini göstərə bilir.

FTN 7. Neft faktorunun Azərbaycanın beynəlxalq münasibətlərinə təsirini müstəqil şəkildə araşdıra, elmi-nəzəri nəticələr çıxara bilir.

## II blok: 2.1. Sovet dövründə Azərbaycanda sosial-iqtisadi islahatlar və onların xüsusiyyətləri

FTN 1. Tələbə Sovet dövründə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların mərhələlərini və mahiyyətini izah edə bilir.

FTN 2. Planlı iqtisadiyyatın formalaşması, kollektivləşmə, sənayeləşmə və urbanizasiya proseslərini təhlil edir.

FTN 3. Sovet islahatlarının əhalinin sosial həyatına, təhsil, səhiyyə və mədəniyyət sahələrinə təsirini izah edə bilir

FTN 4. Azərbaycan SSR-də həyata keçirilən islahatları digər ittifaq respublikaları ilə müqayisə edə bilir və islahatlarının müsbət və mənfi cəhətlərini elmi arqumentlərlə əsaslandıra bilir..

FTN 5. SSRİ-nin daxili siyasətində Azərbaycanın yerini və iqtisadi potensialının ittifaq miqyasında rolunu və Sovet iqtisadi modelinin Azərbaycanın gələcək inkişafına təsirlərini qiymətləndirir.

FTN 6. Sovet dövrünə aid statistik məlumatları, sənədləri və arxiv materiallarını təhlil edə bilir.

FTN 7. Sovet sosial-iqtisadi islahatlarının xüsusiyyətlərini müstəqil şəkildə araşdırır və elmi nəticələrə gəlir.

## 2.2. XIX-XX əsrin əvvəllərində maarifçilik hərəkatı və mədəni dirçəlişin istiqamətləri

FTN 1. XIX–XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatının yaranma səbəblərini və inkişaf mərhələlərini izah edə bilir.

FTN 2. Maarifçilərin əsas ideyalarını, ictimai-siyasi baxışlarını və onların cəmiyyətin inkişafına təsirini şərh edə bilir

FTN 3. Mədəni dirçəlişin ədəbiyyat, teatr, mətbuat, incəsənət və təhsil sahələrindəki istiqamətlərini təhlil edir.

FTN 4. M.F.Axundzadə, H.Zərdabi, C.Məmmədquluzadə və digər maarifçilərin fəaliyyətini elmi şəkildə qiymətləndirə bilir

FTN 5. Maarifçilik ideyalarının milli özünüdərk, qadın azadlığı və sosial dəyişikliklərə təsirini izah edir.

. FTN 6. Maarifçilik hərəkatının milli oyanış və müstəqillik ideyalarının formalaşmasında rolunu əsaslandıra bilir.

FTN 7. XIX–XX əsrin əvvəllərində mədəni dirçəlişin müasir Azərbaycan mədəniyyətinə təsirlərini qiymətləndirir.

FTN 8. Maarifçilik hərəkatının müxtəlif istiqamətlərini müstəqil araşdıraraq elmi-nəzəri nəticələr çıxara bilir.

## III blok: 3.1. Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyasının əsasları

FTN 1. Heydər Əliyevin siyasi fəaliyyətinin əsas mərhələlərini və milli inkişaf strategiyasının prioritet istiqamətlərini sadalaya bilir.

FTN 2. Heydər Əliyevin idarəçilik prinsiplərinin Azərbaycanın dövlətçilik ənənələrinin möhkəmlənməsində rolunu izah edə bilir.

FTN 3. Heydər Əliyev strategiyasının müasir dövlət quruculuğu və iqtisadi islahatlar prosesində tətbiqini konkret nümunələrlə göstərə bilir.

FTN 4. Heydər Əliyevin milli inkişaf konsepsiyasının siyasi, iqtisadi və sosial komponentlərini təhlil edərək onların qarşılıqlı təsirini müəyyən edə bilir.

FTN 5. Azərbaycanın müasir inkişaf istiqamətləri ilə Heydər Əliyev strategiyasını əlaqələndirərək yeni nəzəri yanaşmalar formalaşdıra bilir.

FTN 6. Heydər Əliyevin milli inkişaf strategiyasının Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə mövqelərinin güclənməsinə təsirini qiymətləndirə bilir.

## 3.2. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf mərhələlərinin əsas xüsusiyyətləri (1991–2023-cü illər)

FTN 1. 1991–2023-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişaf mərhələlərini və hər mərhələnin əsas xüsusiyyətlərini sadalaya bilir.

FTN 2. Müstəqilliyin ilk illərindəki böhran dövrünü, Heydər Əliyev dövründə sabitləşmə və inkişafı, 2000–2010-cu illərdə neft amilini və 2015-dən sonrakı qeyri-neft sektorunun prioritetləşdirilməsini izah edə bilir.

FTN 3. Hər bir mərhələ üzrə qəbul edilmiş dövlət proqramlarını və iqtisadi islahatların nəticələrini praktiki nümunələrlə göstərə bilir.

FTN 4.Sosial-iqtisadi inkişafın mərhələlərini müqayisə edərək fərqli tendensiyaları (sabitləşmə, neft bumu, diversifikasiya, rəqəmsal iqtisadiyyat) təhlil edə bilir.

FTN 5. Azərbaycanın sosial-iqtisadi inkişaf modeli əsasında gələcək üçün yeni konseptual yanaşmalar təklif edə bilir.

FTN 6.1991–2023-cü illərdə həyata keçirilən sosial-iqtisadi siyasəti milli təhlükəsizlik, regional liderlik və dayanıqlı inkişaf baxımından qiymətləndirə bilir.

## 4.1. Müasir dövrdə Azərbaycanın xarici siyasəti və beynəlxalq inteqrasiya prosesləri

FTN 1. Azərbaycan Respublikasının müasir xarici siyasət konsepsiyasını və prioritet istiqamətlərini sadalayır.
FTN 2. Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlıq mexanizmlərini izah edir və regional təhlükəsizlikdə rolunu açıqlayır.
FTN 3. Müasir dövrdə Azərbaycanın xarici siyasət strategiyalarını konkret nümunələr əsasında tətbiq edir və onların praktik nəticələrini təhlil edir
FTN 4. Azərbaycanın beynəlxalq inteqrasiya proseslərini müxtəlif siyasi, iqtisadi və mədəni aspektlər üzrə təhlil edir və regional güclərlə münasibətləri müqayisə edir.
FTN 5. Azərbaycanın xarici siyasətində yeni çağırışlara cavab verəcək alternativ yanaşmalar və inteqrasiya modelləri layihələndirir
FTN 6. Azərbaycanın beynəlxalq aləmdə mövqeyini, diplomatik siyasətinin uğurlarını və məhdudiyyətlərini obyektiv meyarlarla qiymətləndirir.

## 4.2. Azərbaycan  Respublikasının təhlukəsizlik problemi və ordu quruculuğunun əsasları

FTN 1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasını, təhlükəsizlik sahəsində qanunvericilik əsaslarını və ordu quruculuğunun tarixi inkişaf mərhələlərini sadalayır.
FTN 2. Milli təhlükəsizlik problemlərinin səbəblərini və nəticələrini izah edir, ordu quruculuğunun prinsiplərini və strukturunu anlayır.
FTN 3. Azərbaycan ordusunun müxtəlif sahələrdə tətbiq olunan strateji və taktiki prinsiplərini nümunələr əsasında tətbiq edir.
FTN 4. Azərbaycanın təhlükəsizlik problemlərini və regional təhdidləri təhlil edir, ordu quruculuğu strategiyasını digər ölkələrin təcrübəsi ilə müqayisə edir.
FTN 5. Milli təhlükəsizlik siyasətinə və ordu quruculuğuna yeni yanaşmalar, inkişaf modelləri və strategiyalar hazırlayır.
FTN 6. Azərbaycanın təhlükəsizlik strategiyasını, ordu quruculuğunun effektivliyini və qarşıya çıxan təhdidlərin idarə olunmasını obyektiv kriteriyalar əsasında qiymətləndirir.

## 5.1. XIX-XX əsrlər  Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətləri

FTN 1. Magistr XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin əsas istiqamətləri, ədəbi, musiqi, teatr və incəsənət sahələrində inkişaf mərhələləri haqqında biliklərə yiyələnir.
FTN 2. Magistr dövrün mədəni inkişafının sosial, siyasi və iqtisadi şəraitlə əlaqəsini şərh edə bilir.

FTN 3. Magistr əldə etdiyi bilikləri konkret mədəni hadisələrin təhlilində və dövrün sənət və ədəbiyyat nümunələrinin interpretasiyasında tətbiq edir.
FTN 4. Magistr XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin müxtəlif sahələrini müqayisəli şəkildə təhlil edir, fərqli cərəyanların və şəxslərin rolunu müəyyənləşdirir.
FTN 5. Magistr mədəni proseslər və fərqli sahələr üzrə məlumatları birləşdirərək XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin inkişaf meyllərini ümumiləşdirir.
FTN 6. Magistr dövrün mədəniyyətinin tarixi və sosial əhəmiyyətini elmi arqumentlərlə qiymətləndirir və Azərbaycan mədəniyyət tarixindəki yerini müəyyənləşdirir.

## 5.2. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatının əsas problemləri

FTN 1. Magistr XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatının əsas mərhələləri, liderləri və təşkilatları haqqında biliklərə yiyələnir.
FTN 2. Magistr hərəkatın səbəblərini, məqsədlərini və Azərbaycan tarixindəki rolunu izah edə bilir.
FTN 3. Magistr əldə etdiyi bilikləri konkret tarixi hadisələr və dövrlər üzrə təhlil edərək hərəkatın gedişatını izah edə bilir.
FTN 4. Magistr milli azadlıq hərəkatının müxtəlif təşkilatlarının fəaliyyətini, strategiyalarını və nəticələrini müqayisəli şəkildə təhlil edir.
FTN 5. Magistr müxtəlif mənbə və məlumatları birləşdirərək hərəkatın ümumi təsirini və inkişaf perspektivlərini izah edə bilir.

FTN 6. Magistr XX əsrdə milli azadlıq hərəkatının uğurlarını və çatışmazlıqlarını elmi arqumentlərlə qiymətləndirir və onun Azərbaycan tarixindəki əhəmiyyətini müəyyənləşdirir

**Əlavə 2**

**Azərbaycanın yeni və ən yeni tarixi (7002016) ixtsasında təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 |
| Tədqiqat metodları | x | x | | | x | x | | x | x | | |
| Akademik yazı və etika | | | x | x | x | | x | x | | x | x |
| Tədqiqat analitikası | x | x | x | x | x | | | x | x | | |
| Azərbaycanın yeni və ən yeni tarixi elminin müasir problemləri | x | | x | x | x | | | | | | x |
| Azərbaycanın yeni və ən yeni tarixinin tədrisi metodologiyası və metodikası | x | x | x | x | | | | x | x | x | x |
| XX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişafı | x | | | | x | | | | x | x | |
| Azərbaycan xalqının tarixində Azərbaycan Xalq Cümhuriyyətinin rolu | x | x | | | x | | x | x | x | | |
| Azərbaycan tarixinin tarixşünaslığının və mənbəşünaslığının əsas | x | x | | | | x | | x | | x | x |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| xüsusiyyətləri | | | | | | | | | | | |
| Azərbaycan arxeologiyası və etnoqrafiyası | x | | x | x | x | | | | | | x |
| XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin başlıca problemləri | x | x | x | x | | | | x | x | x | x |
| Neft faktorunun Azərbaycanın beynəlxalq əhəmiyyətində rolu | x | | | | x | | | | x | x | |
| Qarabağ münaqişəsi və həllinin beynəlxalq aspektləri | x | x | | | x | | x | x | x | | |
| Sovet dövründə Azərbaycanda sosial-iqtisadi islahatlar və onların xüsusiyyətləri | x | x | | | | x | | x | | x | x |
| XIX-XX əsrin əvvəllərində maarifçilik hərəkatı və mədəni dirçəlişin istiqamətləri | x | | x | x | x | | | | | | x |
| Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyasının əsasları | x | x | x | x | | | | x | x | x | x |
| Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf mərhələlərinin əsas xüsusiyyətləri (1991–2023-cü illər) | x | | | | x | | | | x | x | |
| Müasir dövrdə Azərbaycanın xarici siyasəti və beynəlxalq inteqrasiya prosesləri | x | x | | | x | | x | x | x | | |
| Azərbaycan Respublikasının təhlukəsizlik problemi və ordu | x | x | | | | x | | x | | x | x |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **quruculuğunun əsasları** | | | | | | | | | | | |
| **XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətləri** | **x** | | **x** | **x** | **x** | | | | | | x |
| **XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatının əsas problemləri** | **x** | **x** | **x** | **x** | | | | x | x | x | x |
| **Elmi-pedaqoji təcrübə** | | | | | | | | | | | |
| **Elmi tədqiqat təcrübəsi** | | | | | | | | | | | |
| **Magistrlik dissertasiyası** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** | **x** |

# MÜNDƏRİCAT

Giriş.............................................................................................5
Təhsil proqramının təlim nəticələri..................................................6
ÜMUMİ FƏNLƏR.........................................................................8
Tədqiqat metodları..........................................................................8
Akademik yazı və etika...................................................................9
Tədqiqat analitikası ...........................................................10
ALİ TƏHSİL MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN MƏCBURİ FƏNLƏR............................................11
Azərbaycanın yeni və ən yeni tarixi elminin müasir problemləri.........................................................................11
Azərbaycanın yeni və ən yeni tarixinin tədrisi metodologiyası və metodikası...............................................................12
ALİ TƏHSİL MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN SEÇMƏ FƏNLƏR...................................................13
1.2. Qarabağ münaqişəsi və həllinin beynəlxalq aspektləri....13
XX əsrin ikinci yarısında Azərbaycanın sosial-iqtisadi inkişafı..........................................................................14
Azərbaycan xalqının tarixində Azərbaycan Xalq Cümhuriyyətinin rolu...............................................................................15
Azərbaycan tarixinin tarixşünaslığının və mənbəşünaslığının əsas xüsusiyyətləri.................................................................16
Azərbaycan arxeologiyası və etnoqrafiyası...........................17
XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin başlıca problemləri......................................................18
I blok: 1.1. Neft faktorunun Azərbaycanın beynəlxalq əhəmiyyətində rolu................................................................19
II blok: 2.1. Sovet dövründə Azərbaycanda sosial-iqtisadi islahatlar və onların xüsusiyyətləri.........................................20

2.2. XIX-XX əsrin əvvəllərində maarifçilik hərəkatı və mədəni dirçəlişin istiqamətləri........................................................21
III blok: 3.1. Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyasının əsasları......................................................22
3.2. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf mərhələlərinin əsas xüsusiyyətləri (1991–2023-cü illər).........23
4.1. Müasir dövrdə Azərbaycanın xarici siyasəti və beynəlxalq inteqrasiya prosesləri.............................................................24
4.2. Azərbaycan Respublikasının təhlukəsizlik problemi və ordu quruculuğunun əsasları................................................25
5.1. XIX-XX əsrlər Azərbaycan mədəniyyətinin inkişaf xüsusiyyətləri.............................................................................25
5.2. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatının əsas problemləri..............................................................................26

**MAGISTRATURA TƏHSİL SƏVİYYƏSİNİN**
**7002016 – AZƏRBAYCANIN YENI VƏ ƏN YENI TARIXI**
**İXTİSASI PROQRAMININ**

**TƏLİM NƏTİCƏLƏR**

Yığılmağa verilmişdir: 04.03.2024-cü il.
Çapa imzalanmışdır: 11.03.2024-cü il.
kağız formatı-(210x279) ¼, kağız №1,
1,8uçot çap vərəqi, tiraj 50.
Rezoqrafiya üsulu ilə nəşr olunmuşdur.

Gəncə Dövlət Universitetinin nəşriyyatı.
Rezoqrafiya üsulu ilə çap olunmuşdur.
Ünvan: GDU-nun nəşriyyat şöbəsi,
Gəncə şəhəri,Heydər Əliyev prospekti 429